**F.Ş.Cəfərova**

**UOT:339.132.2: 339.5.025.7. JEL:M12;O38.**

# Azərbaycan Respublikasında məşğulluq sahəsində gender bərabərliyinin təmin edilməsi istiqamətləri

**_Xülasə_**

*Məqalədə məşğulluq sahəsində gender bərabərliyinin təmin edilməsinin sosial-demoqrafik aspektləri tədqiq edilib öyrənilmiş və bu sahədə vəziyyətin yaxşılaşdırılmasına dair təklif və tövsiyələr verilmişdir. Aparılan tədqiqatların nəticəsi göstərir ki, hələlik respublikamızda iqtisadi fəal qadınlar və gənclər arasında işsizlik səviyyəsi xeyli yüksəkdir və onun azaldılması diqqət mərkəzində durmalıdır. Buna görə də hazırda ölkəmizin qarşısında duran başlıca vəzifələrdən biri gənclərin, xüsusilə də qızların hərtərəfli bilik və bacarıqlara malik olmasını təmin etmək üçün peşə təhsili infrastrukturunun əsaslı şəkildə müasirləşdirilməsi, peşə təhsilinə cəlb olunan gənclərin sayının artırılması, cəmiyyətin tələblərinə uyğun formada əsaslı təhsil standartları və kurikulumlarının hazırlanması və müasir təminatlı peşə-tədris mərkəzlərinin və komplekslərinin yaradılması obyektiv zərurətə çevrilməlidir.*

***Açar sözlər:*** *əhali, gender bərabərliyi, məşğulluq, işsizlik, məşğulluq və işsizlik səviyyəsi, iqtisadi fəal əhali, məşğulluq strategiyası, əmək haqqı, iş yerləri, işsizlik statusu, iqtisadi qeyri-fəal əhali.*

## Giriş

Müasir inkişaf mərhələsində cəmiyyət həyatının ictimai-siyasi, sosial-iqtisadi, mədəni və sair sahələrdə kişi və qadınların bərabərliyinin təmin edilməsi ilə bağlı problemlərin öyrənilməsi müxtəlif elm sahələrində məşğul olan alimlərin tədqiqat predmetinə çevrilmişdir. Bu təsadüfi olmayıb hələ də ictimai-siyasi həyatın bir çox sahələrində cinsi ayrı-seçkiliyə yol verilməsi, qadınların hüquq və azadlıqlarının pozulması hallarına rast gəlmək mümkündür. Belə halların baş verməməsi üçün ölkə vətəndaşlarının cins, irq, din və millətindən asılı olmayaraq qanun qarşısında bərabər olduqları və eyni məsuliyyət daşıdıqlarını bilmək vacibdir. Əslində isə gender bərabərliyindən söhbət düşdükdə əksər hallarda cəmiyyətdə daha çox qadınların müdafiə edilməsi, onlara xüsusi qayğı göstərilməsi nəzərdə tutulur. Ancaq burada kişiləri də yaddan çıxartmaq olmaz. Çünki, Azərbaycan Respublikasının Konstitusiyasında deyilir ki: “Kişi və qadının eyni hüquqları və azadlıqları vardır” (1, s.13) Bu da təkzib edilməz faktdır ki, ayrı-ayrı hallarda qadınların narazıçılıqları, kişilərin isə idarəçilik iddiaları gender bərabərliyinin şərtlərinə əməl edilməməsinə yol açır, bu isə nəticədə qadın və kişi bərabərliyindəki tarazlığın pozulmasına və buradan irəli gələn bir çox mənfi halların meydana gəlib artmasına səbəb olur. Burada onu da nəzərə almaq lazımdır ki, qadın və kişilərin hüquqi, sosial və mədəni baxımdan bərabər olması ölkədə sağlam ailə institutunun inkişafı və demoqrafik vəziyyətin müsbət olması üçün də mühüm əhəmiyyət kəsb edir. Hal-hazırda dünyanın əksəriyyət ölkələrində bu sahədə çoxlu qanunlar qəbul edilmiş və öhdəliklər qəbul edilmişdir. Bir sıra inkişaf etmiş ölkələrdə gender ayrı-seçkiliyinin aradan qaldırılması, kişi və qadınlar arasında real sosial bərabərliyin yaradılması üzrə uğurlu milli siyasətin formalaşdırılması sahəsində yetərli səviyyədə təcrübə toplanmışdır. Bu sahədə müstəqil Azərbaycan Respublikası da istisna edilmir. Azərbaycan Respublikasında qadınlar demək olar ki, ictimai həyatın bütün sahələrində, o cümlədən ənənəvi olaraq kişi əməyinin tətbiqi sahələrində və peşələrində çalışırlar. Onlar habelə biznesə, maliyyə işi ilə, siyasi və



*©F.Ş.Cəfərova AMEA İqtisadiyyat İnstitutu, “Demoqrafiya və iş qüvvəsinin təkrar istehsalı problemləri” şöbəsi, böyük elmi işçi*
*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

hərbi sahələrdə də çalışır və fəal rol oynayırlar. Azərbaycan Respublikasında gender bərabərliyinin təmin edilməsi sahəsində böyük uğurlara imza atılmış və bir çox nailiyyətlər əldə edilmişdir. Bunlara Beynəlxalq nüfuzlu təşkilatlar (BMT, İslam Konfransı Təşkilatı, ATƏT, Avropa Şurası və sair) tərəfindən qarşıya qoyulmuş öhdəliklərə əməl edilməsi; BMT-nin Pekində həyata keçirdiyi Ümumdünya qadınlar konfransının "fəaliyyət platforması"-nın və "Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi konfensiyası"-nın qəbul etdikləri qərarların və beynəlxalq öhdəliklərin yerinə yetirilməsi; Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin "7" may 2008-ci il tarixli sərəncamı ilə "Gender bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının qanununun qəbul edilməsi və sair aiddir. Ancaq bununla belə çox təəssüflər olsun ki, 2005-ci ildə ölkəmizdə qəbul edilmiş "Azərbaycan Respublikasında məşğulluq strategiyası (2003-2015-ci illər)"-ndan fərqli olaraq 2018-ci ildə qəbul edilmiş "2019-2030-cu illər Azərbaycan Respublikasının məşğulluq strategiyası"-nda nəinki gender bərabərliyinə, hətta, qadın məşğulluğuna dair heç nə deyilmir. Bundan əlavə hazırda məşğul olanların əksəriyyətini qadınlar təşkil etdiyi təhsil, səhiyyə, incəsənət və mədəniyyət sahələrində çalışanların orta aylıq nominal əmək haqqının məbləği bir çox sahələrdə olduğuna nisbətən əhəmiyyətli dərəcədə azdır. Bəzi fəaliyyət sahələrində isə məşğul olanlar arasında qadınların xüsusi çəkisi lazımi səviyyədə deyildir. Bütün bunlar respublikamızda məşğulluq sahəsində gender bərabərliyinin təmin edilməsi ilə bağlı məsələlərin araşdırılmasına, bu sahədə vəziyyətin yaxşılaşdırılmasına dair təklif və tövsiyələr hazırlayıb müvafiq dövlət və hökumət orqanlarına təqdim edilməsini tələb edir.

**Azərbaycan Respublikasında əmək qabiliyyətli yaşında iqtisadi fəal əhalinin cins tərkibi üzrə məşğulluq və işsizlik səviyyəsində baş vermiş dəyişikliklərin qiymətləndirilməsi**



Azərbaycan Respublikasında 2003-cü ildən başlayaraq ölkə başçısı İlham Əliyev cənablarının rəhbərliyi və təşəbbüsü ilə həyata keçirilmiş uğurlu iqtisadi islahatlar və sosial siyasət nəticəsində respublikamızda mövcud olan əmək qabiliyyətli yaşında iqtisadi fəal kişi və qadınların, o cümlədən də iqtisadi fəal gənclərin (15-29 yaşında) məşğulluq səviyyəsinin ardıcıl surətdə yüksəlməsinə, işsizlik səviyyələrinin isə azalmasına səbəb olmuşdur. Ümumiyyətlə götürüldükdə hər bir ölkənin əhalisi ictimai və iqtisadi fəallığı baxımından iki yerə: iqtisadi fəal və iqtisadi qeyri-fəal əhaliyə bölünür. İqtisadi fəal əhali (iş qüvvəsi) dedikdə - ölkə iqtisadiyyatında məşğul olan və işsiz əhali, iqtisadi qeyri-fəal əhali dedikdə isə 15 və yuxarı yaşda məşğul olmayan və müəyyən dövr ərzində iş axtarmayan şəxslər başa düşülür. 2003-2019-cu illəri əhatə edən 16 il ərzində Azərbaycan Respublikasının əhalisinin sayı 1712,3 min nəfər və ya 120,7 faiz artaraq 8269,2 min nəfərdən 9981,5 min nəfərə, o cümlədən əmək qabiliyyətli yaşında olan iqtisadi fəal əhalinin sayı 1395,8 min nəfərə və ya 137,9 faiz artaraq 3690,1 min nəfərdən 5085,9 min nəfərə; kişilərin sayı isə 970,1 min nəfər və ya 123,9 faiz artaraq 4058,0 min nəfərdən 5028,0 min nəfərə, əmək qabiliyyətli yaşda iqtisadi fəal kişilərin sayı 493,3 min nəfər artaraq 2133,4 min nəfərdən 2626,7 min nəfərə; iqtisadi fəal qadınların sayı isə 827,9 min nəfər və ya 119,6 faiz artaraq 4211,2 min nəfərdən 5039,1 min nəfərə, əmək qabiliyyətli yaşda olub iqtisadi fəal qadınların sayı isə 902,5 min nəfər artaraq 1556,7 min nəfərdən 2459,2 min nəfərə gəlib çatmışdır. (2, s.60; 3, s. 117) Bu məlumatlardan göründüyü kimi 2003-cü ildə respublika əhalisinin 49,1 faizini kişilər; 50,9 faizini qadınlar; o cümlədən əmək qabiliyyətli yaşında iqtisadi fəal əhalinin 57,8 faizini kişilər, 42,2 faizini qadınlar təşkil etmişdirsə, 2019-cu ildə müvafiq surətdə əhalinin 49,9 faizini kişilər, 50,1 faizini qadınlar; əmək qabiliyyətli yaşında olan iqtisadi fəal əhalinin isə 51,6 faizini kişilər, 48,4 faizini isə qadınlar təşkil etmişlər. Bu illər ərzində qeyd edilən yaşda olmuş iqtisadi fəal kişi və qadınların məşğulluq və işsizlik səviyyəsində baş vermiş dəyişiklikləri isə aşağıdakı 1-ci cədvəlin məlumatlarından görmək olar. Həmin cədvəlin məlumatlarından görünür ki, 2003-2019-cu illərdə respublika iqtisadiyyatında məşğul olmuş əmək qabiliyyətli yaşında iqtisadi

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

fəal əhalinin sayı 1565,9 min nəfər və ya 147,1 faiz artaraq 3286,4 min nəfərdən 4834,3 min nəfərə, o cümlədən kişilərin sayı 595,7 min nəfər və ya 131,0 faiz artaraq 1923,7 min nəfərdən 2519,4 min nəfərə, qadınların sayı isə 952,2 min nəfər və ya 169,9 faiz artaraq 1362,7 min nəfərdən 2314,9 min nəfərə gəlib çatmışdır. Nəticədə ölkə miqyasında əmək qabiliyyətli yaşında iqtisadi fəal əhalinin məşğulluq səviyyəsi 6,0 faiz bənd artaraq 89,1 faizdən 95,1 faizə yüksəlmiş; işsizlik səviyyələri isə təqribən 2,2 dəfədən çox azalaraq 10,9 faizdən 4,9 faizə düşmüşdür. Bu illər ərzində ölkə iqtisadiyyatında məşğul olmuş əmək qabiliyyətli kişilərin məşğulluq səviyyəsi 5,7 faiz bənd artaraq 90,2 faizdən 95,4 faizə; qadınlar məşğulluq səviyyəsi isə 6,6 faiz bənd artaraq 87,5 faizdən 94,1 faiz yüksəlmiş; onların işsizlik səviyyələri isə müvafiq surətdə kişilər arasında təqribən 2,4 dəfə azalaraq 9,8 faizdən 4,1 faizə, qadınlar arasında isə 2,1 dəfə azalaraq 12,5 faizdən 5,9 faizə düşmüşdür. 1-ci cədvəlin məlumatlarından da aydın görünür ki, bu göstəricilər ölkəmizin şəhər və kənd yerlərində müxtəlif olaraq bir-birindən fərqli surətdə təzahür etdirmişdir. Kənd yerlərində əhalinin hər iki cinsdən olanlar üzrə məşğulluq səviyyəsinin xeyli yüksək, işsizlik səviyyəsinin aşağı olması isə kənd yerlərində sahibkarlıqla məşğul olanların ailə üzvlərinin hamısının məşğul əhali kimi qeydə alınması ilə bağlıdır. Məşğulluq səviyyəsinin yüksəlməsi və işsizlik səviyyəsinin azaldılması sahəsində əldə edilmiş bu nailiyyətlər təsadüfi olmayıb, son illərdə ölkəmizdə aparılmış böyük quruculuq işlərinin, ölkə ərazisində bir sıra Dövlət Proqramlarının uğurla yerinə yetirilməsi, respublikamızda 2,4 milyona qədər yeni iş yerlərinin yaradılmasının nəticəsində mümkün olmuşdur. (4. s.666-667). 2003-2019-cu illərdə respublikamızda yaradılmış 2389,4 min yeni iş yerlərinin 1563,6 minini və ya 65,4 faizini daimi iş yerləri təşkil etmişdir.



**Cədvəl 1.**

**Azərbaycan Respublikasında əmək qabiliyyətli yaşında iqtisadi fəal kişi və qadınların məşğulluq və işsizlik səviyyələrinin dəyişilməsi**

| Cinslər | Əmək qabiliyyətli yaşında iqtisadi fəal əhali (min nəfər) | | Onlardan | | | | Məşğulluq səviyyəsi %-lə | | İşsizlik səviyyəsi (%) | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Məşğul əhali (min nəfər) | | İşsiz əhali (min nəfər) | | | | | |
| | 2003-cü ildə | 2019-cu ildə | 2003-cü ildə | 2019-cu ildə | 2003-cü ildə | 2019-cu ildə | 2003-cü ildə | 2019-cu ildə | 2003-cü ildə | 2019-cu ildə |
| **Şəhər və kənd yerlərində** | | | | | | | | | | |
| **Cəmi** | 3690,1 | 5085,9 | 3286,4 | 4834,3 | 403,7 | 251,6 | 89,1 | 95,1 | 10,9 | 4,9 |
| **Kişilər** | 2133,4 | 2626,7 | 1923,7 | 2519,4 | 209,7 | 107,3 | 90,2 | 95,9 | 9,8 | 4,1 |
| **Qadınlar** | 155,7 | 2459,2 | 1362,7 | 2314,9 | 194,0 | 144,3 | 87,5 | 94,1 | 12,5 | 5,9 |
| **Şəhər yerlərində** | | | | | | | | | | |
| **Cəmi** | 1948,5 | 2586,2 | 1669,2 | 2433,7 | 279,3 | 152,5 | 85,7 | 94,14 | 14,3 | 5,9 |
| **Kişilər** | 1137,5 | 1335,0 | 998,7 | 1268,6 | 138,7 | 66,4 | 87,3 | 95,0 | 12,2 | 5,0 |
| **Qadınlar** | 811,0 | 1251,2 | 670,5 | 1165,1 | 140,6 | 86,1 | 82,7 | 93,1 | 17,3 | 6,9 |
| **Kənd yerlərində** | | | | | | | | | | |
| **Cəmi** | 1741,5 | 2499,7 | 1617,2 | 2400,6 | 124,3 | 99,1 | 92,9 | 96,0 | 7,1 | 4,0 |
| **Kişilər** | 995,4 | 1291,7 | 925,0 | 1250,8 | 71,0 | 40,9 | 92,9 | 96,8 | 7,1 | 3,2 |
| **Qadınlar** | 745,6 | 1208,0 | 692,2 | 1149,8 | 53,3 | 58,2 | 92,8 | 95,2 | 7,2 | 4,8 |

Mənbə: Əmək bazarı. 2003, Bakı, 2004. səh.60, Əmək bazarı, Bakı, 2020. səh 117

Yeni yaradılmış bütün iş yerlərinin 652,7 mini və ya 27,3 faizi, o cümlədən daimi iş yerlərinin 539,1 mini və ya 34,5 faizi Bakı şəhərinin, müvafiq surətdə 1736,7 mini və ya 72,7 faizi və 1024,5 mini və ya 65,5 faizi regionların payına düşmüşdür. (4. s.666-679). Qeyd edilən 16 il ərzində respublikamızda yaradılmış 1563,6 min daimi iş yerlərinin isə 995,7 mini və ya 61,1 faizi fərdi sahibkarlıq subyektlərinin; 213,6 mini və ya 13,7 faizi yeni yaradılmış müəssisə və təşkilatların; 367,6 mini və ya 23,6 faizi mövcud müəssisə və təşkilatların payına düşmüşdür. Burada onu da qeyd etmək lazımdır ki, pandemiya dövrünə təsadüf etməsinə baxmayaraq 2020-ci ildə ölkəmizdə 129,0 min yeni iş yerləri yaradılmışdır, ki, onun da 89,3 mini və ya 69,3 faizi Bakı şəhərinin, 39,7 mini və ya 30,7 faizi isə regionların payına düşmüşdür. Eyni zamanda 2020-ci ildə respublikamızda 20,1 min iş yeri bağlanmışdır. Bağlanmış iş yerlərinin 14,4 mini və ya 71,6 faizi dövlət sektorunun, 5,7 mini və ya 28,4 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür. Bağlanmış iş yerlərinin 16,0 mini və ya 79,6 faizi fəaliyyət göstərən müəssisə və təşkilatlarda aparılmış ixtisarların, 4,1 mini isə müəssisə və təşkilatların fəaliyyətlərinin dayandırılması səbəbindən baş vermişdir. Burada onu da qeyd etmək lazımdır ki, hazırda ölkəmizdə mövcud olan işsiz əhalinin 144,3 min nəfərini və ya 57,4 faizini qadınlar; 107,3 min nəfərini və ya 42,6 faizini isə kişilər təşkil edirlər. Cəmi işsizlərin isə 47,7 faizini (120,0 min nəfərini); o cümlədən qadınların – 45,7 faizini (66,0 min nəfər); kişilərin isə 50,3 faizini (54,0 min nəfər) 15-29 yaşda olan gənclər təşkil edirlər. Onların təhsil səviyyələrinə nəzər saldıqda isə məlum olur ki, cəmi işsiz gənclərin 13,6 faizini, o cümlədən kişilərin 17,1; qadınların – 11,0 faizini ali təhsili olanlar; müvafiq surətdə - 12,2; 13,1 və 11,5 faizini orta ixtisas təhsili olanlar; 7,6; 6,7 və 8,1 faizini peşə təhsili olanlar; 66,6; 63,1 və 69,9 faizini isə xüsusi peşə-ixtisas təhsili olmayanlar, yəni tam orta, ümumi orta və ibtidai təhsili olanlar təşkil edir. Ən əsası isə həmin işsiz gənclərin 12,3 faizini ictimai istehsalda iştirak etmək şansı çox az, ancaq təhsil almaq şansı yüksək olan 15-19 yaşında olanlar; 87,6 faizini isə ictimai istehsalda iştirak etmək imkanları çox böyük olan 20-29 yaşda olanlar təşkil edir. Burada onu da qeyd etmək istərdik ki, 15-29 yaşda olan işsiz gənclərin 53,6 faizi, o cümlədən 15-19 yaşda olanların 48,8 faizi; 20-24 yaşda olanların 54,2 faizi; 25-29 yaşda olanların isə 58,6 faizi qızların payına düşür. (3, s. 127-129). Apardığımız hesablamalara əsasən müəyyən etmişik ki, son üç il (2017-2019-cu illər) ərzində respublikamızın tam orta məktəblərini 247,0 min nəfər bitirmiş və həmin illərdə ölkəmizin peşə, orta ixtisas və ali təhsil məktəblərinə 228,4 min nəfər (peşə məktəblərinə - 51,1 min nəfər, orta ixtisas məktəblərinə - 52,3 min nəfər, ali məktəblərə - 125,0 min nəfər) qəbul edilmişdir. Bu isə o deməkdir ki, həmin illərdə tam orta məktəbləri bitirmiş 247,0 min nəfərin 228,4 min nəfəri və 92,5 faizi peşə, orta ixtisas və ali təhsillə əhatə olunmuş və 18,6 min nəfəri və ya 7,5 faizi isə təhsildən kənarda qalmışdır. Nəzərə alsaq ki, qeyd edilən dövrdə peşə, orta ixtisas və ali təhsil müəssisələrini 202,9 min nəfər mütəxəssis (peşə məktəblərini 51,1 min nəfər, orta ixtisas məktəblərini 52,3 min nəfər, ali təhsil müəssisələrini 125,0 min nəfər) bitirmişlər, onda əmək bazarına müraciət etmək məcburiyyətində qalanların sayının nə qədər çox ola biləcəyini təsəvvür etmək olar. (5, s.90;127;132;156). Bu da təkzib olunmaz həqiqətlərdir ki, hazırda ölkəmizdə minlərcə gənc oğlan və qızlardan olan mütəxəssislər əmək bazarında ilk peşə-ixtisas, orta ixtisas və ali məktəblərdə yiyələndikləri peşə və ixtisaslarına uyğun iş tapmaqda çətinlik çəkir və onların xeyli bir qismi başqa peşə və ixtisaslarda işləmək məcburiyyətində qalırlar. Bu vəziyyət xüsusi peşə və ixtisas təhsili olmayan gənclər arasında özünü daha qabarıq şəkildə büruzə verir. Faktlar göstərir ki, hazırda ölkəmizin təhsil müəssisələrində elmin istiqamətləri və ixtisas qrupları üzrə hazırlanan və onları bitirən mütəxəssislərin sayı ilə iqtisadiyyatın quruluşu və onlarda mövcud olan iş yerləri və peşələrin sayı arasında ciddi uyğunsuzluqlar vardır. Ali və orta ixtisas məktəblərində, habelə ilk peşə-ixtisas məktəblərində müxtəlif ixtisas və peşələr üzrə kadr hazırlığı həyata keçirilərkən əmək



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

bazarında kişi və qadın əməyinə olan tələb və təklif lazımınca nəzərə alınmır. Elə bu səbəbdəndir ki, bəzi sahələrdə çalışanlar arasında ənənəvi olaraq qadınların xüsusi çəkisi həddən artıq çoxdur, bəzi sahələrdə isə işləyənlərin əksəriyyəti kişilərdir. Bunu demək kifayətdir ki, 2020-ci ilin əvvəlinə respublikanın peşə təhsili müəssisələrində təhsil alan tələbələrin 76,2 faizini kişilər, 23,8 faizini qadınlar; 2019/2020-ci tədris ilinin əvvəlinə isə orta ixtisas təhsili müəssisələrində təhsil alanların 35,9; o cümlədən qeyri-dövlət orta ixtisas təhsil müəssisələrində oxuyanların 39,3; dövlət ali ixtisas təhsil müəssisələrində - 54,1; qeyri-dövlət ali təhsil müəssisələrində - 48,6 faizini kişilər və müvafiq surətdə - 64,4; 61,3; 45,9 və 51,4 faizini qadınlar təşkil etmişlər. (6, səh. 103-107). 2019/2020-ci tədris ilində müxtəlif ixtisas sahələri üzrə təhsil alanlar arasında oğlan və qızların xüsusini çəkisini isə aşağıdakı 2-ci cədvəlin məlumatlarından görmək olar. Həmin cədvəlin məlumatlarından görünür ki, hal-hazırda respublikamızda orta ixtisas təhsil müəssisələrində təhsil ixtisası üzrə təhsil alanların dövlət təhsil müəssisələrində oxuyanların 87,8; qeyri-dövlət təhsil müəssisələrində - 95,0 faizi; dövlət ali təhsil müəssisələrində 76,0 faizi; qeyri-dövlət ali təhsil müəssisələrində isə cəmi 14,6 faizi; humanitar və sosial ixtisaslar üzrə təhsil alanların müvafiq surətdə 92,0; 88,0; 61,1 və 38,9 faizi; mədəniyyət və incəsənət ixtisasları üzrə təhsil alanların 68,2; 79,0; 62,4 və 34,3 faizi və sair qadınlar; 12,2; 5; 24 və 14,6; 8,0; 12,0; 47,3 və 38,9; 31,8; 21; 37,6 və 65,7 faizini isə oğlanlardır. Texniki və texnoloji ixtisaslar üzrə dövlət orta ixtisas məktəblərində isə təhsil alanların 63,7; qeyri-dövlət orta ixtisas məktəblərində - 54,8; dövlət ali təhsil müəssisələrində oxuyanların 54,8; dövlət ali təhsil müəssisələrində oxuyanların – 64,1; qeyri-dövlət ali məktəblərində isə 70,6 faizi oğlanlar; müvafiq surətdə 36,3; 45,2; 35,9 və 29,4 faizi qızlardır. 2019-2020-ci tədris ilində səhiyyə, rifah və xidmət ixtisası üzrə dövlət orta ixtisas məktəblərində oxuyanların 50,8; dövlət ali ixtisas məktəblərində təhsil alanların 66,9; qeyri-dövlət ali məktəblərində isə 32,1 faizi oğlanlar olduğu halda, müvafiq surətdə 74,8; 49,2; 33,1 və 67,9 faizi qızlar olmuşlar. Məhz elə bütün bunların nəticəsidir ki, hazırda ölkə iqtisadiyyatında muzdla işləyənlər arasında kişilərin xüsusi çəkisi ayrı-ayrı fəaliyyət növlərində 22,6 faizlə 93,3 faiz arasında tərəddüd etməklə dəyişdiyi halda, qadınların xüsusi çəkisi 6,7 faizlə 77,4 faiz arasında tərəddüd etməklə dəyişir. Təhsil ixtisası üzrə təhsil alanlar arasında qızların, xüsusi çəkisi (qeyri-dövlət ali təhsil müəssisələri istisna olmaqla – burada təhsil alanların cəmi 14,6 faizi qızlar olmuşdur) 76,0 – 95,0 faiz təşkil etdiyi kimi, təhsil fəaliyyəti ilə məşğul olanlar arasında 73,8 faiz; səhiyyə, rifah və xidmət ixtisasları üzrə təhsil alanlar arasında (dövlət ali təhsil məktəbləri istisna olunmaqla) 49,2-74,8 faiz təşkil etdiyi əhaliyə səhiyyə və sosial xidmətlər göstərilməsi fəaliyyət sahəsində 77,4 faiz təşkil etmişdir. Bunları başqa müvafiq ixtisaslar və fəaliyyət növlərinin misalında da qeyd etmək olar. Əlbəttə, bütün bunlar haqqında qəti fikir söyləmək o qədər asan olmasa da biz burada onu qeyd etmək istərdik ki, gələcəkdə bu məsələlərə xüsusi diqqət yetirilməli və elə etmək lazımdır ki, kişi və qadın əməyinin üstünlüklə tətbiq edildiyi sahələrdə, bütün başqa müvafiq sahələrdə qadının və kişi əməyinin tətbiqi sahəsində müəyyən optimal nisbətlik yaratmaq mümkün optimal nisbətlik yaratmaq mümkün olsun. Ölkə ərazisində müxtəlif fəaliyyət növlərində qadın və kişi əməyinin tətbiqinin düzgün əlaqələndirilməsi həm iş qüvvəsinin ahəngdar surətdə təkrar istehsalının və həm də əhalinin səmərəli məşğulluğunun təmin edilməsinin əsas şərtlər-indən biridir. Çünki, ölkənin müxtəlif ərazilərində məşğul əhalinin cins quruluşunda mövcud olan mütənasibsizliklər əhalinin demoqrafik inkişaf göstəricilərində də müəyyən uyğunsuzluqların yaranmasına səbəb ola bilər. Buna görə də məşğul əhalinin cins tərkibində müəyyən mütənasiblik, tarazlıq gözlənilməsinə təkcə əmək ehtiyatlarından istifadənin səviyyəsi baxımından yanaşmaq doğru olmaz. Bunun əhəmiyyəti daha böyükdür. Çünki məşğul olanlar arasında qadın və kişilərin mütənasib nisbətlikdə olması normal



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

demoqrafik proseslər üçün ən mühüm şərtdir. Bu hal ailənin yaşayış fondunun formalaşmasında ərlə arvadın əmək haqqının əsas yer tutması ilə izah edilir.

**Cədvəl 2.**

**Azərbaycan Respublikasında iqtisadi fəaliyyət növlərində muzdla işləyənlərin cins quruluşu (2019-cu il, %)**

| İqtisadi fəaliyyət növləri | Cəmi işləyənlər %-lə | Onlardan | |
|---|---|---|---|
| | | Kişilər | Qadınlar |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 100,0 | 77,1 | 22,9 |
| Mədənçıxarma sənayesi | 100,0 | 86,7 | 13,3 |
| Emal sənayesi | 100,0 | 75,0 | 25,0 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 100,0 | 89,5 | 10,5 |
| Su təchizatı, tullantıların tənzimlənməsi və emalı | 100,0 | 65,4 | 34,6 |
| Tikinti | 100,0 | 93,3 | 6,7 |
| Ticarət, nailiyyət vasitələrinin təmiri | 100,0 | 75,3 | 24,7 |
| Nəqliyyat və anbar təsərrüfatı | 100,0 | 83,7 | 16,3 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 100,0 | 69,9 | 30,1 |
| İnformasiya və rabitə | 100,0 | 70,8 | 29,2 |
| Maliyyə və sığorta fəaliyyəti | 100,0 | 63,7 | 36,3 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 100,0 | 68,7 | 31,3 |
| Peşə, elm və texniki fəaliyyət | 100,0 | 55,7 | 44,3 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 100,0 | 64,9 | 35,1 |
| Dövlət idarəetməsi və müdafiə, sosial təminat | 100,0 | 72,9 | 27,1 |
| Təhsil | 100,0 | 26,2 | 73,8 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərinin göstərilməsi | 100,0 | 22,6 | 77,4 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 100,0 | 38,1 | 61,9 |
| Digər sahələrdə xidmətlərinin göstərilməsi | 100,0 | 66,1 | 33,9 |
| Cəmi iqtisadiyyatda | 100,0 | 59,9 | 40,1 |

Mənbə: Əmək bazarı, Statistik məcmuə. Bakı, 2020, səh 33.



Ölkə miqyasında və onun ayrı-ayrı iqtisadi rayonlarında, iri, orta və xırda şəhərlərində mövcud olan qadın və kişi əmək ehtiyatlarının ictimai istehsal dairəsinə cəlb edilməsi dərəcəsi arasında müəyyən optimal nisbətlər yaradılması və onların daha çox ictimai istehsala cəlb edilməsi hər şeydən əvvəl burada istehsalın ümumi artımını sürətləndirməyi, onun quruluşunu yüksək əməktutumlu mütərəqqi sənaye sahələri hesabına dəyişdirilib təkmilləşdirməyi və nəhayət, istehsalı elə sahələrdə cəmləşdirməyi tələb edir ki, bu cür qeyri-mərkəzləşdirmə iqtisadi göstəricilərə mənfi təsir göstərməsin və sənaye istehsalının əmək qabiliyyətli iqtisadi fəal kişi və qadınların məşğulluq səviyyəsinin aşağı olduğu işsizlik səviyyəsinin yüksək olduğu yerlərdə yerləşdirilməsinə imkan versən, gələcəkdə ölkəmizin ərazisində qadın və kişi əməyinin üstünlüklə tətbiq edildiyi sahələrin inkişaf etdirilib düzgün yerləşdirilməsi və onların düzgün əlaqələndirilməsi gənclərin ailə qurmasını da xeyli asanlaşdırar, onları yaşadığı və işlədiyi yerə daha çox bağlı edər və buradan irəli gələn mənfi sosial-iqtisadi və demoqrafik nəticələrin meydana gəlməsinin qarşısını alar, əhalinin təbii təkrar istehsalı prosesinin ahəngdar gedişinə və onların yaş-cins tərkibi üzrə optimal məşğulluğunun təmin edilməsinə köməklik göstərir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Qeyd etmək istərdik ki, hazırda ölkəmizdə qadın əməyinin ən yüksək səviyyədə tətbiq edildiyi təhsil, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi; istirahət, əyləncə və incəsənət sahələrində çalışan qadınların orta aylıq nominal əmək haqlarının məbləği orta ölkə səviyyəsindən xeyli aşağı olmaqla diqqəti cəlb edir. Belə ki, 2019-cu ilin rəsmi statistik məlumatlarına əsasən təhsil sahəsində muzdla işləyən qadınların orta aylıq nominal əmək haqqının məbləği 409,7 manat olub orta respublika səviyyəsinin (443,4 manat) 92,4 faizini; əhaliyə səhiyyə və sosial xidmətlər göstərilməsi sahəsində 325,1 manat olub orta respublika səviyyəsinin – 73,3 faizini; istirahət, əyləncə və incəsənət sahəsində 360,2 manat olub orta respublika səviyyəsinin 81,2 faizini təşkil etmişdir. (3, səh. 68) Bununla belə son illərdə respublikamızda hesablanan Gender Bərabərliyi İndeksi xeyli azalaraq 2010-cu ildəki 0,346-dan 2019-cu ildə 0,264-ə; qadınların səlahiyyətlərinin artırılması indeksi isə azalaraq 0,450-dən 0,427-yə düşmüş; gender amili nəzərə alınmaqla İnsan İnkişaf İndeksi isə əksinə 0,827-dən 0,934-ə yüksəlmişdir. (6, s.176). Müasir tələblərə cavab verən dual təlim metodlarını əks etdirən peşə təhsili sistemi yaradılmalı; gənclərin məşğulluğunun təmin edilməsində mühüm rol oynayan (əmək vərdişləri öyrədən) müasir tədris üsulu olan modul, habelə Almaniya, Yaponiya, Danimarka, Avstriya, İsveçrə və Lüksemburq kimi inkişaf etmiş ölkələrdə tətbiq edilən dual (ikili) tədris formalarından istifadə edilməli; təhsil müəssisələrində elmin istiqamətləri və ixtisas qrupları üzrə hazırlanan və onları bitirən mütəxəssislərin sayı və cins quruluşu ilə iqtisadiyyatın quruluşu və ayrı-ayrı iqtisadi fəaliyyət növlərində mövcud olan və boş qalmış iş yerləri və peşələrin sayı arasında lazımi tarazlığın olmamasını nəzərə alaraq təhsil müəssisələrində kadr hazırlığı zamanı yeni texniki və texnologiyalara əsaslanan peşə və ixtisaslara; turizmin, aqrar sahənin, ticarət və ictimai iaşənin, informatika və rabitənin, habelə sənayenin mütərəqqi sahələrinin inkişafı ilə bağlı olan peşə və ixtisaslara xüsusi önəm verilməlidir.

**Nəticə**

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, müstəqillik illərində Azərbaycan Respublikasında mütəşəkkil və qeyri-mütəşəkkil əmək bazarında məşğul olan qadınların sayı xeyli çoxalmışdır. Bu onların öz hüquqlarını daha dərindən dərk edərək və ona riayət olunmasını tələb edərək getdikcə daha çox öz istəklərinə müvafiq olan iş əldə etmələri nəticəsində mümkün olmuşdur. Onlar eyni zamanda, iş tapmaq və işdə irəli çəkilməyə, habelə maaşların artırılması və iş şəraitinin yaxşılaşdırılmasına da müvəffəq olurlar. Buna baxmayaraq, muzdla əməyin xarakterinin dəyişilməsinə və bəzi hallarda peşəkar və ixtisaslı qadınlar tərəfindən iş yerlərinin itirilməsinə gətirib çıxaran hallar onunla nəticələnir ki, iqtisadi vəziyyət və yenidənqurma prosesi qadınlara öz mənfi təsirini göstərir. Bundan əlavə, qadınların çoxu başqa imkanlarının olmaması üzündən özlərinə qeyri-formal sektorda məşğulluq tapırlar. Qadınların mənafeləri və əsasən də Gender problemləri hələ ki, öz həllini lazımi səviyyədə tapmadığından onların əmək və yaşayış şəraitləri struktur yenidənqurma, məşğulluq, miqrasiya və sairə üzrə proqramlarda və sair nəzərə alınmalıdır. Müasir şəraitdə iqtisadiyyatın qloballaşdırılması nəticəsində qadınlar üçün məşğulluq baxımından yeni imkanların yaranmasına baxmayaraq, qadın və kişilərin bərabərsizliyinin güclənməsi meyli meydana çıxmışdır. Bir çox hallarda iş yerlərinin yaradılmasına dair strategiyalarda qadınların üstünlük təşkil etdiyi peşə və işlərə kifayət qədər diqqət yetirilmir. Burada onu da nəzərə almaq lazımdır ki, muzdla əmək şəraitində işləyən qadınların çoxu imkanlarının tam açıqlanmasına imkan verməyən çətinliklərlə rastlaşırlar.

Bəzi hallarda cinsi əlamətə görə çətinliklər bir tərəfdən qadınların ləyaqətini alçaldır, digər tərəfdən isə onların qabiliyyətinə uyğun imkanların gerçəkləşməsinə imkan vermir. Bütün bunlar məşğulluq sahəsində tətbiq olunan strategiyaların Gender problemləri baxımından yenidən işlənməsini tələb edir. Qadın və kişilərin iqtisadi bərabərliyinin bərqərar



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

olunması üçün, onların bilik və təcrübəsi, habelə gördüyü işlər cəmiyyətdə layiqincə qiymətləndirilib etiraf olunmalıdır. Qadınların iqtisadi müstəqilliyi məsələlərinə baxılan zaman dövlət və hökumət qadınları, eyni zamanda bu prosesin başqa iştirakçıları Gender problemlərini nəzərə alan siyasətin bütün strategiya və proqramlarda tətbiq edilməsinə hər cür köməklik göstərməli, hələ qərarlar qəbul olunmamış, onların həm kişi və həm də qadınların mənafeyi baxımından nəticələri təhlil edib qiymətləndirilməlidirlər. Qadınların mədəni-texniki səviyyəsinin yüksəldilməsi, onların təhsil səviyyəsi və ixtisas dərəcələrinin artırılması və təhsildə bərabərliyin təmin edilməsi respublikamızda bir sıra tədbirlər sisteminin işlənib hazırlanması və həyata keçirilməsini tələb edir. Bunlara, qızların gələcəkdə peşə imkanlarının genişləndirilməsi üçün Gender xüsusiyyətlərini nəzərə alan və onlara qarşı ayrı-seçkiliyi ləğv edən məqsədli proqramların işlənib hazırlanması; ümumi orta, peşə-texniki, orta ixtisas və ali təhsil məktəblərində təhsil alan oğlan və qızların nisbətinin mütənasibliyi probleminin həll olunması; təhsil və peşə hazırlığı almaq üçün bərabər imkanların təmini məqsədi ilə Gender məsələlərini nəzərə alan təhsil sisteminin formalaşdırılması; qadın və kişilərin sosial, iqtisadi və siyasi inkişaf proseslərində bərabər iştirakını təmin etmək məqsədilə təhsilin keyfiyyətinin yaxşılaşdırılması; qadınların işlə təminatını, sosial tələbatlarını ödəmək üçün onların təhsil, peşə hazırlığı və ixtisaslarının yüksəldilməsinin təkmilləşdirilməsi strategiyasının tədqiqi və həyata keçirilməsi; qadınların və qadınların həyatı üçün lazımi bilik və vərdişlərə fasiləsiz yiyələnmək məqsədilə onların genişmiqyaslı təhsil və peşə hazırlığı proqramları ilə təmin olunması və sair aiddir. Gələcəkdə ölkəmizdə, xüsusilə də işğaldan azad edilmiş ərazilərdə gənc oğlan və qızların lazımi iş yerləri ilə təmin edilməsi, onların məşğulluq səviyyəsinin yüksəldilməsi, əməklərindən səmərəli istifadə edilməli; peşə hazırlığı keçmiş gənclərin daimi iş yerləri ilə; sərbəstləşmə təhlükəsi ilə üzləşə biləcək gənclərin isə işdən azad edilməsindən əvvəl əmək bazarında tələbat olan peşə və ixtisaslar üzrə yenidən hazırlıq keçirilməsinin təmin edilməli; kənd yerlərində yaşayan gənclərin şəhər yerlərinə və başqa ölkələrə axınının qarşısını almaq üçün sərhədyanı və digər rayonlarda yeni və müvafiq iş yerlərinin yaradılmalı və onların qorunması üçün lazımi şərait yaradılmalı; ordudan tərxis olunan gənclərin məşğulluğu təmin edilməli; onların peşə hazırlığı və yenidən hazırlıq işi gücləndirilməli; gənc sahibkarlara, fermerlərə və işsiz gənclərə dəstək verilməsi üçün rayon və şəhərlərdə biznes mərkəzləri şəbəkəsinin yaradılması üçün lazımi tədbirlər görülməlidir. Nəhayət, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 2021-ci il 2 fevral tarixi sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli prioritetlər №-də qarşıya qoyulmuş vəzifələrə uyğun olaraq ölkəmizdə məşğulluq sahəsində gender bərabərliyinin təmin edilməsi ilə bağlı problemlərin tədqiqinə xüsusi önəm verilməlidir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası Bakı, 2009.
2. Əmək bazarı, 2003. Statistik məcmuə. Bakı, 2004.
3. Əmək bazarı. Statistik məcmuə. Bakı, 2020.
4. Azərbaycanın Statistik göstəriciləri. Statistik məcmuə. Bakı, 2020.
5. Azərbaycanda Təhsil, Elm və Mədəniyyət, Statistik məcmuə. Bakı, 2020.
6. Azərbaycanda qadınlar və kişilər, Statistik məcmuə. Bakı, 2020.


© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***F.Ш.Джафарова***

***Направления обеспечения гендерного равенства в сфере занятости в Азербайджанской Республике***

***Резюме***

*В статье были изучены социально-демографические аспекты обеспечения гендерного равенства в сфере занятости и даны предложения и рекомендации по улучшению ситуации в этой сфере. Результаты проведенных исследований показывают, что пока уровень безработицы среди экономически активных женщин и молодежи в нашей республике достаточно высок, и ее снижение должно быть в центре внимания. Поэтому одной из главных задач, стоящих в настоящее время перед нашей страной, должна стать коренная модернизация инфраструктуры профессионального образования для обеспечения молодежи, особенно девушек, всесторонними знаниями и навыками, увеличение числа молодежи, вовлеченной в профессиональное образование, разработка в соответствии с требованиями общества базовых образовательных стандартов и учебных программ, создание современных обеспеченных профессионально-учебных центров и комплексов.*

***Ключевые слова:*** *население, гендерное равенство, занятость, безработица, уровень занятости и безработицы, экономически активное население, стратегия занятости, заработная плата, рабочие места, статус безработицы, экономически неактивное население.*

***F.Sh.Cafarova***

***Directions of ensuring gender equality in the field of employment in the Republic of Azerbaijan***

***Summary***

*The article explores and studies the socio-demographic aspects of ensuring gender equality in the field of employment and provides suggestions and recommendations on improving gender in this field. The results of the research show that the unemployment rate among economically active women and young people in our republic is very high and its reduction should be in the spotlight. Therefore, one of the main tasks facing you today is to ensure that young people, especially girls, have comprehensive knowledge and skills, to substantially modernize the vocational education infrastructure, to increase the number of young people involved in vocational education, to develop basic education standards and curricula in accordance with the requirements of society, and to create modern vocational and training centers and*

***Keywords:*** *population, gender equality, employment, unemployment, employment and unemployment level, economically active population, employment strategy, salary, jobs, unemployment status, economically inactive population.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 07.06.2021.***
***Çapa qəbul olunub: 14.06.2021.***



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az